**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№288/4** **30 iyun 2017-ci il**

**"Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 31 yanvar tarixli 285/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor Xidməti Bazarında Haqsız Rəqabətin əlamətləri" ilə bağlı dəyişikliklər edilməsi barədə**

Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi barədə "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər)" II "Auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin institusional potensialının gücləndirilməsi" bölməsinin 3-cü "Auditor xidməti sahəsində qadağaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması" bəndinə əsasən hazırlanmış "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 31 yanvar tarixli 285/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor Xidməti Bazarında Haqsız Rəqabətin əlamətləri" ilə bağlı dəyişikliklər edilməsi barədə materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminə (yeni redaksiyada) dair hazırlanmış material bəyənilsin və tətbiqi məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının struktur bölmələrinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, S.Gülməmmədov, M.Abbasov, V.Rəhimov, R.Cəfərli, E.İbrahimov, M.Hüseynova) tapşırılsın ki, Palatanın Şurası yanında fəaliyyət göstərən müvafiq Komitələrlə birlikdə "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nin tətbiqini təmin etsinlər.
3. Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinə (M.Abbasova) və Palatanın Şurası yanında Qanunvericilik və hüquqi məsələlər üzrə komitəyə (E.İbrahimov) tapşırılsın ki, bir ay müddətində Auditorlar Palatasının bu sahəyə dair normativ sənədlərinin "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nə uyğunlaşdırılması üzrə təkliflərini təqdim etsinlər.
4. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, iki həftə müddətində Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi üzrə hazırlanmış materialın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
5. Bu qərarın və materialın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**